BAKI XƏBƏR 2021.18mart.S.12.



# Vətən sevgisini ürəyinin başında yaşadan şəhid Balaş...

**Vətən torpağının hər qarışını canından əziz bilən, İkinci Qarabağ müharibəsində onun ərazi bütövlüyü uğrunda özünü fəda edib şanlı tarix yazan Balaş İltizam oğlu Fərziyevin adı xalqın dilindən düşmür.**

Müqəddəs, ulu torpağın qəhrəman oğlu, gözəl arzularla doğma yurduna bağlı olan Balaş Lerik rayonunun Bibiyani kəndində boya-başa çatmışdı. Vətənini sevən, xalqının gələcəyini düşünən bu saf əxlaqlı gənc Tanrının verdiyi ömür payını daha da dəyərli etmək üçün ali təhsil almağın vacibliyini yaxşı başa düşür. Odur ki, 2011-ci ildə Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat" fakültəsinə qəbul olur, yüksək savadla oranı başa vurur. Bundan sonra Balaşın nəcib xisləti, dərin zəkası, xalqına fayda vermək əzmi, yurd sevgisi, qüruru onu qarşıdan gözəl günlərin gözlədiyini bildirir. Amma həyatı dərk edəndən ürəyinə yüklənən Qarabağ dərdi Balaşın bütün arzularını yarımçıq qoyur.

Balaş 2015-ci ildə həqiqi hərbi xidmətə çağırılır. Cəbhə bölgəsində Vətənin keşiyində durur, daim nümunəvi xidməti ilə fərqlənir. Ən əsası, Vətənin ləyaqətini hər şeydən üstün tutmaqla, hətta hər an onun yolunda şəhid olmağı özünə şərəf bilir. Elə bu xasiyyətinə görə xidmət etdiyi hərbi hissədə vətənpərvər, mərd, igid əsgəri hamı sevir.

Vətən qarşısında üzüağ övladlıq borcunu yerinə yetirən Balaş 4 il dinc əməklə məşğul olur. Cəmiyyət üçün çox dəyərli işlər görür. İnsanpərvərliyi, qayğıkeşliyi el-obada ona dərin rəğbət qazandırır. Bunlarla bərabər ürəyi həmişə erməni dığalarına qarşı intiqam hissi ilə döyünür, əzəli yurd yerimiz Qarabağ torpaqlarını azad görmək üçün yağıdan qisas almağa hazır durur. Məhz buna görə də Vətən müharibəsi başlananda Balaş Qarabağ naminə haqq savaşımıza, odun-alovun içinə könüllü gedir. Və ilk gündən düşmənə qarşı mərdliklə vuruşur, bir-birindən çətin əməliyyatların qəhrəmanı kimi tanınır. Ürəyi daim Vətən eşqi ilə döyünən dağlar diyarın qartal balası Füzulinin azadlığı uğrunda isə onun hər qarışında can qoyur. Sonrakı döyüşlərdə də o, torpağın qürurunu özündə əziz sayır, dığaları əzə-əzə şəhidlik zirvəsinə ucalır. Balaşın bu hünəri tarixin yaddaşında iz qoymaqla, 44 günlük şanlı zəfərimizin qəhrəmanlıq simvoluna çevrilir.

Bəli, Balaş canından, qanından artıq sevdiyi Vətəndən oğulluq adını qazana bildi. Dövlət onun bu igidliyini "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə bir daha şərəfləndirdi.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***